Səs.- 2018.-28 aprel.-S.11






# Şamaxı rayonunda akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyi qeyd olunub

Dünən YAP Şamaxı rayon təşkilatının qadınlar şurası Heydər Əliyev Mərkəzində görkəmli oftamoloq-alim, akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyi münasibəti ilə tədbir keçirib. Yığıncağı giriş sözü ilə açan YAP Şamaxı rayon təşkilatının qadınlar şurasının sədri rayon icra hakimiyyəti başçısının müavini Gülnisə Ələkbərova bildirib ki, respublikamızda tibb elminin inkişafına mühüm töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümü Şamaxı rayonunda geniş şəkildə qeyd olunur, eyni zamanda, rayonun elm, təhsil və səhiyyə müəssisələrində görkəmli alimin xatirəsinə həsr olunmuş tədbirlər keçirilir, sərgi və müxtəlif toplantılar təşkil olunur. Tədbirdə çıxış edən Şamaxı Diyarşunaslıq muzeyinin kiçik elmi işçisi Zərifə Baxşıyeva bildirib ki, tibb elminin inkişafına mühüm töhfələr verən akademik Zərifə xanım Əliyeva oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə nəinki keçmiş SSRİ məkanında, həmçinin, dünya miqyasında böyük şöhrət qazanıb.

Çıxışlarda bildirilib ki, görkəmli alim bütün türk dünyasında, müsəlman aləmində qadınlığa örnək bir insan, fəal ictimai xadim idi: “Zərifə xanım müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu, etibarlı silahdaşı olub”.

Sonda akademik Zəfifə xanım Əliyevanın ömür və əmək fəaliyyətinə həsr olunmuş film nümayiş edilib.

**İnam HACIYEV**